**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

№ 30 «12» mart 2021-ci il

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının vəzifəli şəxslərinin və struktur bölmələrinin indeksində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçısı aparatının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayı"nda edilmiş dəyişikliklərlə əlaqədar, Binəqədi Rayon İcra İcra Hakimiyyəti başçısı Aparatında mövcud vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydalarına uyğun olaraq, vəzifəli şəxslərinin və struktur bölmələrinin mövcud indeksində dəyişiklik edilməsi zərurəti yaranmışdır.

Qeyd edilənləri və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydası"nın 3.18.-ci bəndini nəzərə alaraq,

**QƏRARA ALIRAM:**

**1.** Binəqədi Rayon İcra İcra Hakimiyyətində vətəndaşların müraciəti baxılmaq üçün aidiyyəti üzrə göndərildikdə, müşayiət məktubunda onun daxilolma nömrəsindən əvvəl RİH başçısı Aparatının vəzifəli şəxslərinin və struktur bölmələrinin indeksi aşağıdakı kimi müəyyənləşdirilsin:

| Sıra №si | RİH başçısı Aparatının vəzifəli şəxslərinin və ya struktur bölməsi | İndeks |
|---|---|---|
| 1. | Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev | 01 |
| 2. | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov | 02 |

| | | |
|---|---|---|
| **3.** | Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov | **03** |
| **4.** | Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova | **04** |
| **5.** | Sektor müdiri — baş mühasib Hicran Dadaşova | **05** |
| **6.** | Böyük məsləhətçi — Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiya | **06** |
| **7.** | İnformasiya təminatı və təhlil sektorunun müdiri Aynur Quliyeva | **07** |
| **8.** | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri İskəndər Cahangirzadə | **08** |
| **9.** | Hüquq şöbəsinin müdiri Yunis Hüseynova | **09** |
| **10.** | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyev | **10** |
| **11.** | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyev | **11** |
| **12.** | Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Səməndar Mənəfov | **12** |
| **13.** | Rayon təsərrüfatı şöbəsinin müdiri Azər Kərimov | **13** |
| **14.** | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyev | **14** |

**2.** Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Əliyev Sabir Qələndər oğluna tapşırılsın ki, bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür.**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** Sabir Əliyev

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN